# Stavropolda Rusiya–Azərbaycan Regionlararası Forumu keçirilib

***Sentyabrın 28-də Stavropolda "İnvestisiyalar, innovasiyalar, turizm" mövzusunda VIII Rusiya-Azərbaycan Regionlararası Forumu keçirilib.***

***Azərbaycan İqtisadiyyat Nazirliyi və Rusiya İqtisadi İnkişaf Nazirliyi tərəfindən təşkil olunan forumda Azərbaycan Respublikasından nazir Şahin Mustafayevin rəhbərliyi ilə 120 nəfərdən ibarət böyük nümayəndə heyəti iştirak edib.***

Forumda sənaye və humanitar sahələrdə əməkdaşlıq, turizmin inkişafı, səhiyyə sahəsində innovasiyalar və digər mövzularda "dəyirmi masa"lar, işgüzar əlaqələr birjası keçirilib, ikitərəfli əməkdaşlıq sənədləri imzalanıb.

Tədbirin əvvəlində Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putinin forum iştirakçılarına təbrik məktubları oxunub.




Forumda hər iki tərəfi təmsil edən 400-dən çox nümayəndənin iştirak etdiyini diqqətə çatdıran Stavropol diyarının qubernatoru Vladimir Vladimirov bildirib ki, Stavropol ilə Azərbaycan arasında əmtəə dövriyyəsi ildə 130 milyon dollar təşkil edir. Qubernator Azərbaycan şirkətlərini diyarın kurort şəhərləri ilə fəal əməkdaşlığa çağırıb.



Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxışında Rusiyada Azərbaycan diasporunun fəaliyyətinə xüsusi yer ayıraraq deyib ki, Ümumrusiya Azərbaycanlıları Konqresinin fəaliyyətinin dayandırılması məyusedici haldır. Səfir diaspor təşkilatlarının işinə dövlət dəstəyinin əhəmiyyətini vurğulayıb və ÜAK-ın fəaliyyətinin tezliklə bərpa ediləcəyinə ümidvar olduğunu bildirib.

Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin iki ölkə arasındakı iqtisadi münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək deyib: "Rusiyanın 8 regionu Azərbaycanla fəal əməkdaşlıq edir, burada 650 müştərək şirkət fəaliyyət göstərir. Biz Azərbaycanla əczaçılıq və turizm sahələrində əməkdaşlığı inkişaf etdiririk. Birgə layihələrimizə 500 milyon dollar sərmayə yatırılıb. Bu layihələr üçüncü ölkələrdə də həyata keçirilir".

Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev forumun yüksək səviyyədə təşkilinə görə Stavropol diyarının qubernatoru Vladimir Vladimirova təşəkkürünü bildirib. İkitərəfli əməkdaşlıq münasibətlərinin dinamikasından danışan nazir deyib ki, iki ölkə arasında iqtisadi sahədə 200-dən çox müqavilə imzalanıb. Rusiyanın Azərbaycanda fəaliyyət göstərən 70 şirkəti ölkəmizə 3 milyard dollar sərmayə yatırıb. Eyni zamanda, Azərbaycan şirkətləri Rusiya iqtisadiyyatına 1 milyard dollar investisiya qoyublar.

Forumda çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılıqlı hörmət və mehriban qonşuluq prinsiplərinə əsaslanan, Azərbaycan-Rusiya əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsində olmasına və əsas istiqamətlərinə dövlət başçılarımızın xüsusi önəm verdiklərini qeyd edib. Prezidentlərin, dövlət rəsmilərinin və iş adamlarının çoxsaylı qarşılıqlı səfərlərinin, keçirilən müştərək tədbirlərin, ikitərəfli müqavilələrin ölkələrimiz arasında bütün sferalarda mövcud olan əlaqələrin və qarşılıqlı əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etməsi sahəsində müstəsna rol oynadığını deyib.

Səbuhi Abdullayev Kislovodsk kurort şəhəri ilə Qəbələ şəhəri arasında dostluq münasibətlərinin qurulması haqqında 1 noyabr 2016-cı il tarixdə Bakıda keçirilən VII Azərbaycan-Rusiya Regionlararası Forumunda imzalanan Sazişin buna əyani nümunə olduğunu qeyd edib. O, Sazişdə iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, elm, səhiyyə, mədəniyyət, kurort, turizm işi, məşğulluq və əhalinin sosial müdafiəsi məsələləri istiqamətində qarşılıqlı münasibətlərin inkişafı üçün əlverişli şəraitin yaradılması məsələlərinin əksini tapdığını diqqətə çatdırıb.

Səbuhi Abdullayev bugünkü Forumun da əvvəlki illərdə keçirilmiş forumlar kimi, tərəfdaşlığın daha da genişləndirilməsi üçün yeni perspektivlər açacağına, hər iki ölkənin regionları arasında əlaqələri və səmərəli əməkdaşlığı gücləndirəcəyinə, Rusiya-Azərbaycan dostluğunun yüksək səviyyədə tərəqqisinə öz töhfələrini verəcəyinə əminliyini bildirib. Eləcə də Forumun bölgələrimizdəki mədəni və iqtisadi tərəqqi ilə xalqlarımızın daha yaxından tanış olmasına, işgüzar səfərlərin intensivliyinə, birgə layihələrin hazırlanaraq həyata keçirilməsinə stimul verəcəyini vurğulayıb.

O, təmsil etdiyi Qəbələ rayonunun qeyd olunan bütün sahələr üzrə-xüsusilə turizmin inkişafı istiqamətində, əməkdaşlıq üçün çox maraqlı bölgə olduğunu qeyd edib.

Səbuhi Abdullayev çıxışında 2500 il tarixi və 9 əsr Qafqaz Albaniyasının paytaxtı kimi Qədim Qəbələnin dünyanın Babil, Troya, Pompey şəhərlərilə müqayisə ediləcək dərəcədə mühüm siyasi, iqtisadi və ticarət mərkəzlərindən biri olduğunu diqqətə çatdırıb. O, bu günümüzə gəlib çatan antik dövrə aid böyük binaların, möhtəşəm qala divarları qalıqlarının və digər maddi mədəniyyət abidələrin Qəbələnin çox böyük strateji əhəmiyyətə malik bir şəhər olduğunu sübut etdiyini söyləyib.

Şərqlə Qərbin qovuşduğu məkanda yerləşən Azərbaycanın ən əsrarəngiz bölgəsi olan Qəbələnin bu gün sürətlə inkişaf etdiyini bildirən RİH-nin başçısı bunun nəticədə beynəlxalq turizm təşkilatlarının buraya olan marağının daha da artırdığını, burada ən mötəbər beynəlxalq tədbirlərin, zirvə toplantılarının, elmi konfransların, idman yarışlarının, musiqi, rəsm, kino festivallarının keçirilməsinin artıq ənənə halı aldığını və bütün bu tədbirlərə Rusiya Federasiyasının musiqi kollektivlərinin, kinematoqrafçılarının, fırça ustalarının və idmançılarının həvəslə qatıldıqlarını, Rus mədəniyyətinin ən unikal numunələrini və idman ustalıqlarını uğurla nümayiş etdirirdiklərini diqqətə çatdırıb.

Səbuhi Abdullayev bugünkü Forumun həm də Rusiya—Azərbaycan dostluğunun daha da inkişaf etməsinə təkan verəcəyinə, ölkələrimizin və iş adamlarımızın geniş spektrli iqtisadi əlaqələrinin möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

İclasda Rusiya İxrac Mərkəzinin baş direktoru, Rusiya—Azərbaycan İşgüzar Şurasının sədri Mixail Fradkov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri Rüfət Axundov, Bakının Nərimanov Rayonunun İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev və digər rəsmi şəxslər də çıxış ediblər.

İclasın sonunda Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlığa dair sənədlər imzalanıb.

**"Qəbələ"**

# Peşə təhsilində əməkdaşlıq



Qəbələdə "Peşə təhsili və təlimində dövlət-özəl sektor əməkdaşlığı və Avropa İttifaqının Azərbaycanda təhsilə dəstək proqramı - peşə təhsili mərkəzlərinin müasirləşdirilməsi üçün fəaliyyət qrantları" mövzusunda beynəlxalq seminar keçirilib.

Turizm və otelçilik üzrə peşə tədris mərkəzində baş tutan tədbiri mərkəzin direktoru Eyvaz Kazımov acaraq seminar iştirakçılarına təhsil müəssisəsi haqqında ətraflı məlumat verib.

Sonra Avropa İttifaqının, Avropa Təlim Fondunun və Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbir gün ərzində öz işini davam etdirib.

Seminarda müxtəlif təşkilatlar tərəfindən Qəbələ, İsmayıllı, Qaxdakı ilk peşə-ixtisas təhsili müəssisələrində kənd təsərrüfatı, turizm və digər iqtisadi sektorlar üzrə həyata keçiriləcək pilot layihələr təqdim olunub. Eyni zamanda, beynəlxalq ekspertlər turizm və kənd təsərrüfatı sektoru üzrə peşə təhsili təcrübəsini bölüşüblər.

Tədbirdə " Qəbələ, İsmayıllı və Qax rayonlarında kənd təsərrüfatı və turizm sahəsi üzrə ikili təyinatlı PTT Pilot layihələrin təşkili", " Aİ Fəaliyyət Qrantı: ilkin vəziyyətin araşdırılması və gələcək monitorinq üçün hazırlıq" və digər mövzularda müzakirələr aparılıb.

**"Qəbələ"**